***AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİ***

***P O L İ S   A K A D E M İ Y A S I***

***KAFEDRA: "CİNAYƏT PROSESİ"***

ƏYANİ TƏHSİL

# ***M Ü H A Z İ R Ə***

***MÖVZU № 22. "Hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə icraat".***

***TƏRTİB ETDİ***: "Cinayət prosesi" kafedrasının
baş müəllimi, polis polkovnik-leytenantı
**Anar Mikayılov**

Mühazirə kafedranın iclasında müzakirə olunub və təsdiq edilmişdir.
Protokol №   "   " _________________ 2021-cı il.

**B A K I -2021**

# MÖVZU № 22. "Hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə icraat".

## P L A N :

***GİR İŞ:***

1. Hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə icraatın xüsusiyyətləri.
2. Yeni açılmış hallar üzrə işlərin təzələnməsinin anlayışı və əhəmiyyəti.
3. Yeni açılmış hallar üzrə cinayət işi üzr icraatın təzələnməsinin əsasları və müddətləri.

a) Yeni açılmış hallar üzrə məhkəmənin hökm və qərarlarına baxılması haqqında ərizənin ilkin öyrənilməsi.

***NƏTİCƏ:***

## *Ə D Ə B İ Y Y A T:*


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 12 noyabr 1995-ci il. maddələr: 63; 65; 130.
2. "Konstitusiya Məhkəməsi haqqında" 23 dekabr 2003-cü il tarixli Qanunu. mad. 34.2, 34.4.2.
3. Azərbaycan Respublikası CPM Kommentariyası. Bakı, 2019-cu il.
4. Azərbaycan Respublikasının CPM-si. Bakı, 2014, mad. 455-460.
5. "Məhkəmələr və hakimlər haqqında". Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 10 iyun 1997-c il.
6. C.Mövsümov. "Cinayət prosesi". Dərslik. Bakı, 1989. səh.297-300.
7. K.F.Qutsenko. "Uqolovnıy proses". Uçebnik dlya VUZOV. M., 1998. səh.471-484.
8. Mirağa Cəfərquliyev. "Cinayət prosesi". Dərslik. Bakı, 2005-ci il.

11.Q 48-001-12, 19.09.2012.Polisin nəzarəti altına vemə və ev dustaqlığıqətımkan tədbirlərənin tətbiq edilməsi qaydaları haqqında Təlimatın təsdiq edilməsi barədə.

12.N.H. Bayramov.Həbs qətimkan tədbirlərinin tətbiqi ilə əlaqədar qərarların İnsan Hüquqları üzrə Avropa Məhkəməsi presedent təcrübəsinə uyğunlaşdırılması metodikası (metodiki vəsait)Bakı- 2012

13. Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu.16.07.2012

14. Cinayət prosesi fənn proqramı Bakı 2018

15. Firuzə Abbasova "Cinayət prosesi" Dərslik. Ümumi hissə.Bakı 2021"Zərdabi LTD" MMC, 2012, 416 s.

16. Cinayət prosesi. Məsələlər Toplusu N.Əliyev, S.Ağayev, A. Mikayılov, İ.Eyyubov, V. Qasımov, Bakı: Mütərcim, 2014-216 səh.

# G İ R İ Ş

“Cinayət prosesi” fənninin tədrisindən bizə məlumdur ki, cinayət-mühakimə icraatı qarşısında duran ümumi vəzifələri həyata keçirmək üçün hər biri ayrılıqda konkret vəzifələrə malik olmaqla cinayət prosesi altı əsas və üç müstəsna mərhələdən ibarətdir. Bundan əvvəlki mövzunu öyrənərkən, cinayət işlərinin xüsusi hallarda məhkəmə kassasiya qaydasında işlərə yenidən baxılması mərhələsindən keçdiyini araşdırdıq. Bu gün isə biz cinayət prosesinin üçüncü müstəsna mərhələsi olan yeni açılmış hallar üzrə icraatın təzələnməsi mərhələsini öyrənəcəyik.

Mövzunun açıqlanması üçün verilmiş üç sual ətrafında bu mərhələnin hansı əsaslara görə başlanması icraat mexanizmi və son nəticədə hansı qərarların qəbul olunmasını öyrənəcəyik.

Yeni açılmış hallar üzrə işlərin təzələnməsi qanuni qüvvəyə minmiş hökmün qanunsuz və əsassız çıxarılmasına səbəb olan və məhkəmə baxışı zamanı məlum olmayan yeni halların aşkar edilməsi ilə əlaqədar olaraq baş verir.

Yeni açılmış hallar o hallar hesab edilir ki, həmin hallar istintaqı və məhkəmə baxışı zamanı mövcud olsun, lakin istintaq aparan şəxsə və ya işə mahiyyəti üzrə baxan məhkəməyə məlum olmasın.

Yeni açılmış hallar üzrə işə baxılması nəticəsində iş xitam edilməklə, hökm və ya qərar ləğv edilir və yaxud yenidən ibtidai istintaq və məhkəmə baxışı üçün göndərilir.

Məhz, bu baxımdan cinayət-prosessual qanunvericiliyi məhkəmələrin qanuni qüvvəyə minmiş hökm və qərarına ədalət mühakiməsi nöqteyi-nəzərindən “Yeni açılmış hallar üzrə işlərin təzələnməsi” adlanan başlıqla müstəsna hallarda yenidən baxılmasını nəzərtə tutur.

### *Sual 1. Hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə icraatın xüsusiyyətləri.*

Məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə baxılması üçün əsaslar aşağıdakılardan ibarətdir:

1. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarının və ya məhkəməyə müraciət etmək hüququnu pozan məhkəmə aktlarının Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarına uyğun olmadığı hesab edilməsi;

2. İnsan hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən Azərbaycan Respublikasının məhkəmələrində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın müddəalarının pozulduğu müəyyən edilməsi;

3. Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən məhkəmənin tətbiq etdiyi normativ hüquqi aktın Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul edilmiş normativ hüquqi aktlara uyğun olmadığı hesab edilməsi.

CPM-in 455.0.1-ci maddəsi, göstərilmiş əsas üzrə Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən **iki növ məhkəmə aktının** Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olmayan hesab edilməsini nəzərdə tutulur: 1) Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarının; 2) məhkəməyə müraciət etmək (məhkəmə müyəssərliyi) hüququnu pozan məhkəmə aktlarının.

Bu maddədə Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarları dedikdə, Azərbaycan Respublikası Ali Məhkəməsinin həm kassasiya və əlavə kassasiya qismində, həm də yeni açılmış hallar üzrə cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə çıxardığı və hüquq və azadlıqları pozan istənilən qərarı başa düşülməlidir.

Məhkəməyə müraciət etmək (məhkəmə müyəssərliyi) hüququ cinayət proses iştirakçısının Konstitusiyada və cinayət-prosessual qanunvericilikdə təsbit olunmuş  hüquqlarından biridir. Şəxs məhkəməyə cinayət prosesi üzrə icraatda pozulmuş hüquq və azadlıqlarının bərpası məqsədilə müraciət edir. Məhkəməyə müraciət etmək (məhkəmə müyəssərliyi) hüququ isə pozulmuş hüquq və azadlıqların bərpa edilməsi üçün bir vasitədir. Məhkəməyə müraciət etmək (məhkəmə müyəssərliyi) hüququnun pozulması cinayət prosesi iştirakçısının pozulmuş digər hüquq və azadlıqlarının bərpasına gedən yolu bağlayır. Ona görə də cinayət prosesi iştirakçısının məhkəməyə müraciət etmək (məhkəməyə müyəssərliyi) hüququnu pozan məhkəmə aktından verilən şikayətinin məqsədi əslində iki kateqoriya hüquq və azadlıqların bərpasıdır: 1) məhkəməyə müraciət etmək (məhkəmə müyəssərliyi) hüququnun bərpası; 2) cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraatın gedişində onun pozulmuş hesab etdiyi digər hüquq və azadlıqlarının bərpası.

Cinayət-Prosessual Məcəlləsinin 455.0.3-cü maddəsində "məhkəmənin tətbiq etdiyi normativ hüquqi akt" dedikdə, birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsinin tətbiq etdiyi normativ hüquqi akt başa düşülür. Normativ hüquqi akt səlahiyyətli dövlət orqanı tərəfindən qəbul edilmiş, göstərişləri ümumi məcburi xarakter daşıyan, hüquq normalarını müəyyən edən, dəyişdirən və ya ləğv edən, dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş rəsmi yazılı sənəddir.

Azərbaycan Respublikasının qanunvericilik sistemi və ona daxil olan normativ hüquqi aktlar AR Konstitusiyasının 147-151-ci maddələri ilə müəyyən edilir.

AR Konstitusiya Məhkəməsi, “Konstitusiya Məhkəməsi haqqında” 23 dekabr 2003-cü il tarixli Qanunun 34.2-ci maddəsinə uyğun olaraq AR Ali Məhkəməsinin qərarlarının AR Konstitusiyasına və qanunlarına uyğun olub-olmamasına dair şikayətlərə aşağıdakı hallara baxa bilər: 1) tətbiq edilməli olan normativ hüquqi akt məhkəmə tərəfindən tətbiq edilmədikdə; 2) tətbiq edilməli olmayan normativ hüquqi akt məhkəmə tərəfindən tətbiq edildikdə; 3) normativ hüquqi akt məhkəmə tərəfindən düzgün şərh edilmədikdə.

AR Ali Məhkəməsinin qərarlarının AR Konstitusiyası və qanunlarına uyğun olmamasının mübahisə edilməsi üzrə şikayət AR Ali Məhkəməsinin qərarlarının qüvvəyə mindiyi andan altı ay müddətində verilə bilər.

Məhkəməyə müraciət etmək (məhkəmə müyəssərliyi) hüququnun pozulduğu andan cinayət prosesi iştirakçısı üç ay müddətində AR Konstitusiya Məhkəməsinə şikayət edə bilər.

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarının və ya məhkəməyə müraciət etmək (məhkəmə müyəssərliyi) hüququnu pozan məhkəmə aktlarının Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarına uyğun olmayan hesab edilməsi, məhkəmənin tətbiq etdiyi normativ hüquqi aktın Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul edilmiş normativ hüquqi aktlara uyğun olmayan hesab edilməsi və İnsan Hüquqları üzrə Avropa Məhkəməsi tərəfindən Azərbaycan Respublikasının məhkəmələrində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiyanın müddəalarının

pozulduğunun müəyyən edilməsi haqqında qəbul edilən qərarlar hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar hesab edilir.

Həmin halların hər biri birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı qəbul edilən qərarlara müxtəlif cür təsir edə bilər. Həmin təsir nəticəsində AR Ali Məhkəməsinin qəbul etdiyi qərarlar CPM-in 458-460-cı maddələrində nəzərdə tutulmuşdur.

CPM-in 456.1 maddəsinə əsasən hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə məhkəmə aktlarına baxılması hüququna Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu malikdir.

CPM-in 455.0.1-ci və 455.0.2-ci maddələrində nəzərdə tutulan əsaslar oldquda, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarlarının icrası ilə bağlı yalnız hüquqi məsələlər üzrə işlərə baxır. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və ya İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə daxil olduqda Ali Məhkəmənin sədri hakimlərin birinə işin Plenumun məhkəmə iclasına hazırlanmasını və məruzə edilməsini tapşırır. İşə Plenumun məhkəmə iclasında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və ya İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin qərarı Azərbaycan Respublikasının Ali Məhkəməsinə daxil olduqdan sonra 3 aydan ged olmayan müddətdə baxılır.

CPM-in 455.0.3-cü maddəsi ilə nəzərdə tutulan əsaslar olduqda Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu məhkəmə aktlarına ərizə əsaında hüquqi məsələlər üzrə yenidən baxır. Hüquq və azadlıqların pozulması bağlı yeni hallar üzrə məhkəmə aktlarına baxılması haqqında ərizənin verilməsi, ərizəyə dair tələblər və ərizənin ilkin öyrənilməsi məsələləri CPM-in 464-466-cı maddələrinə uyğun olaraq həll edilir.

Ərizənin ilkin öyrənilməsi onun Azərbaycan Respublikasının Ali Məhkəməsinə daxil olmasından sonra 1 aydan çox olmayan müddət ərzində həyata keçirilir. Azərbaycan Respublikası Ali Məhkəməsi hakiminin rəyi alındıqdan sonra Ali Məhkəmənin sədri 3 ay müddətində işə baxılması barədə məsələni Plenumun gündəliyinə daxil edir.

Hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə məhkəmə aktlarına baxılması qaydası.

İşə Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun iş qaydasında müvafiq olaraq baxılır. Bu da öz əksini CPM-in 427-ci maddəsində tapmışdır.

CPM-in 458-ci maddəsində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Azərbaycan Respublikası Ali Məhkəməsinin qərarlarının və ya məhkəməyə müraciət etmək (məhməmə müyəssərliyi) hüququnu pozan məhkəmə aktlarının Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarına uyğun olmayan hesab edilməsi ilə əlaqədar hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə işə yenidən baxılması nəticəsində AR Ali Məhkəməsinin Plenumu tərəfindən qəbul edilən qərarların növləri göstərilmişdir. Qanunverici həmin qərarları Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin baxışının obyekti kimi CPM-in 455.0.1-ci maddəsində sadalanan əsasların növündün asılı olaraq iki qruppa ayırır:

1) hüquq və azadlıqların, o cümlədən məhkəməyə müraciət etmək (məhkəmə müyəssərliyi) hüququnun pozulması ilə çıxarılmış və Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarına uyğun olmayan hesab edilmiş birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrinin, habelə əlavə kassasiya qaydasında çıxarılmış məhkəmə aktlarının tam və ya qismən ləğv edilməsi və cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat materiallarının yenidən baxılması üçün

aidiyyəti üzrə müvafiq birinci və ya apellyasiya instansiyası məhkəməsinə göndərilməsi barədə qərar;

2) hüquq və azadlıqların, o cümlədən məhkəməyə müraciət etmək (məhkəmə müyəssərliyi) hüququnun pozulması ilə çıxarılmış və Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarına uyğun olmayan hesab edilmiş kassasiya instansiyası məhkəməsinin qərarının və (və ya) əlavə kassasiya qaydasında çıxarılmış qərarın ləğv edilməsi və yeni qərarın çıxarılması barədə qərar.

Bu halda AR Ali Məhkəməsinin Plenumu CPM-in 456.2-ci maddəsinə uyğun olaraq məhkəməyə müraciət etmək (məhkəmə müyəssərliyi) hüququnun pozulması ilə çıxarılmış birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrinin aktlarının, habelə əlavə kassasiya qaydasında məhkəmə aktlarının Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarına uyğun olmayan hesab edilməsi haqqında Konstitusiya Məhkəməsinin qərarının icrası üzrə hüquqi məsələləri həll etməlidir.

Bu o deməkdir ki, məhkəməyə müraciət etmək (məhkəmə müyəssərliyi) hüququnun pozulması ilə çıxarılmış və Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarına uyğun olmayan hesab edilmiş birinci və apellyasiya instansiyası məhkəmələrinin aktlarının ləğv edilməsi və cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat materiallarının yenidən baxılması üçün aidiyyəti üzrə müvafiq birinci və ya apellyasiya instasiyası məhkəməsinə gönədrilməsi barədə qərar çıxarmaqla AR Ali Məhkəməsinin Plenumu əslində Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin müvafiq qərarı ilə cinayət prosesi iştirakçısının bərpa edilmiş məhkəməyə müraciət etmək (məhkəmə müyəssərliyi) hüququnu rəsmiləşdirmiş olur.

Cinayət prosesi iştirakçısının məhkəməyə müraciət etmək (məhkəmə müyəssərliyi) hüququ müvafiq birinci və ya apellyasiya instansiyası məhkəməsində icraatın hansı mərhələsində pozulmuşdursa, AR Ali Məhkəməsinin Plenumu tərəfindən qəbul edilmiş CPM-in 458.0.1-ci maddəsində göstərilmiş qərar da icraatın həmin mərhələsinə yenidən baxılmaq üçün göndərilir.

CPM-in 455.0.1-ci maddəsində nəzərdə tutulmuş əsas üzrə AR Ali Məhkəməsinin Plenumu tərəfindən qəbul edilən qərarlardan biri də kassasiya instansiyası məhkəməsinin qərarının və (və ya) əlavə kassasiya qaydasında çıxarılmış qərarın çıxarılması barədə qərardır. Bu maddədə yeni qərar ləğv edilməsi və yeni qərarın çıxarılması barədə qərardır. Bu maddədə  yeni qərar dediklə, artıq ləğv edilmiş kassasiya instansiyası məhkəməsinin qərarından, yaxud əlavə kassasiya qaydasında çıxarılmış qərardan fərqli olan və Konstitusiya Məhkəməsinin müvafiq qərarı ilə müəyyən edilmiş hallara (müddəalara, tələblərə) uyğun qərarın çıxarılması başa düşülməlidir. Həmin yeni qərar CPM-in 419.10-cu maddəsində nəzərdə tutulmuş aşağıdakı qərarlardan biri  ola bilər:

1) məhkəçmənin hökm və ya qərarını ləğv etmək və işin andlı iclasçıların iştirakı ilə instansiya  məhkəməsində və apellyasiya instansiyası məhkəməsində yenidən baxılmasını təyin etmək (CPM-in 419.10.2-ci maddəsi);

2) qanuni qüvvəyə minmiş hökm və  qərarları ləğv etmək və cinayət işi, məşkəməyədək sadələşdirilmiş icraatın materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam vermək (CPM-in 419.10.3-cü maddəsi);

3) müvafiq olaraq birinci və ya  apellyasiya instasniyası məhkəməsinin hökm və ya qərarını dəyişdirmək (CPM-in 419.10.4-cü maddəsi).

CPM-in 459.0. maddəsinə əsasən 455.0.2-ci maddəsi ilə nəzərdə tutulan hallarda məhkəmə aktına yenidən baxmış Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunu aşağıdakı qərarlardan birini qəbul etmək hüququna malikdir:

1) müvafiq birinci, apellyasiya və kassasiya instasnyiası məhkəmələrinin, habelə əlavə kassasiya qaydasında hüquq və azadlıqların pozulması ilə çıxarılmış məhkəmə aktlarının tam və ya qismən ləğv edilməsi və cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat materiallarının yenidən baxılması üçün aidiyyəti üzrə müvafiq birinci və ya apellyasiya instansiyası məhkəməsinə göndərilməsi barədə;

2) CPM-in 421.1.2 və 421.1.3-cü maddələrində nəzərdə tutulmuş hallarda kassasiya instansiyası məhkəməsinin qərarının və (və ya) əlavə kassasiya qaydasında çıxarılmış qərarın dəyişdirilməsi barədə;

3) kassasiya instansiyası məhkəməsinin qərarının və (və ya) əlavə kassasiya qaydasında çıxarılmış qərarın ləğv edilməsi və yeni qərarın çıxarılması barədə.

CPM-in 460 maddəsinə müvafiq olaraq məhkəmənin tətbiq etdiyi normativ hüquqi aktın Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul edilən normativ hüquqi aktlara uyğun olmadığı hesab edilməsi ilə əlaqədar hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə işə yenidən baxmaq haqqında qərar.

CPM-in 460.0. maddəsinə əsasən 455.0.3-cü maddəsi ilə nəzərdə tutulan hallarda məhkəmə aktlarına yenidən baxmış Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu aşağıdakı qərarlardan birini qəbul etmək hüququna malikdir:

– Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Konstitusiyaya uyğun olmayan normativ hüquqi akt əsasında birinci,

apellyasiya və kassasiya instansiyası məhkəmələrinin aktlarının, habelə əlavə kassasiya qaydasında çıxarılmış qərarın tam və ya qismən ləğv edilməsi və cinayət işinin məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat materiallarının yenidən baxılması üçün müvafiq olaraq birinci və ya apellyasiya instansiyası məhkəməsinə göndərilməsi barədə;

– CPM-in 421.1.2 və 421.1.3-cü maddələrində nəzərdə tutulmuş hallarda kassasiya instansiyası məhkəməsinin qərarının və (və ya) əlavə kassasiya qaydasında çıxarılmış qərarın dəyişdirilməsi barədə;

– kassasiya instansiyası məhkəməsinin qərarının və (və ya) əlavə kassasiya qaydasında çıxarılmış qərarın ləğv edilməsi və yeni qərarın çıxarılması barədə;

– birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsinin aktlarının, yaxud əlavə kassasiya qaydasında çıxarılmış qərarın dəyişdirilmədən saxlanılması barədə.

AR Ali Məhkəməsinin Plenumu tərəfindən birinci, apellyasiya və ya kassasiya instansiyası məhkəməsinin aktlarının, yaxud əlavə kassasiya qaydasında çıxarılmış qərarın dəyişdirilmədən saxlanılması barədə qərar (CPM-in 460.0.4-cü maddəsi) o hallarda qəbul edilə bilər ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Azərbaycan Respublikasının Konstitusiyasına, qanunlarına və müvafiq icra hakimiyyəti orqanları tərəfindən qəbul edilmiş normativ hüquqi aktlara uyğun olmayan hesab edilmiş məhkəmənin tətbiq etdiyi normativ hüquqi akt (onun ayrı-ayrı müddəaları) məhkəmə aktının məzmununa hər hansı təsir göstərməmiş olsun.

### *Sual 2. Yeni açılmış hallar üzrə işlərin təzələnməsinin anlayışı və əhəmiyyəti.*

Cinayət prosesinin bütün gedişi məhkəmə hökmünün və qərarının həqiqəti, işin faktiki hallarına tamamilə uyğun olmasını təmin edən bir sıra ədalət mühakiməsi təminatlarına malikdir. Hökmün və qərarın qanunsuz və əsassız çıxarılmamına səbəb olan nöqsanların aradan qaldırılmasından ötrü məhkəmənin istər qanuni qüvvəyə minmiş, istərsə də qanuni qüvvəyə minmiş hökm və qərarlarına yenidən baxılması üçün cinayət prosesində üç müstəqil mərhələ, yəni, apellyasiya instansiya məhkəməsində icraat, kassasiya instansiya məhkəməsində icraat və əlavə kassasiya qaydasında mərhələlərinin icraatı mövcuddur.

Cinayət prosesinin apellyasiya instansiyası məhkəməsində icraat və kassasiya qaydasında icraat mərhələləri məhkəmələrin hökm və qərar çıxararkən, yol vermiş olduqları nöqsanların aradan qaldırılması vəzifələrinə xidmət edir.

Qanuni qüvvəyə minmiş məhkəmə hökmləri və qərarları apellyasiya və kassasiya instansiyalarında yoxlanıb-yoxlanmamasından asılı olmayaraq, həqiqi və ədalətli hesab edilir. Lakin, prosesin bütün ədalət mühakiməsi təminatları ilə əhatə olunduğuna baxmayaraq, təcrübədə elə hallara təsadüf olunur ki, məhkəmənin qanuni qüvvəyə minmiş hökm və qərarı həqiqəti əks etdirmir.

Qanunvericilik bütün belə təsadüflərdə məhkəmənin qanuni qüvvəyə minmiş hökm və qərarına ədalət mühakiməsi nöqteyi-nəzərindən “Yeni açılmış hallar üzrə işlərin təzlənməsi” adlanan xüsusi qaydada yenidən baxılmasını nəzərdə tutmuşdur.

Məhkəmənin qanuni qüvvəyə minmiş hökm və qərarlarına yeni açılmış hallar üzrə işlərin təzələnməsi qaydasında yenidən baxılmasının

zəruri əsasları, adətən, icraatı qurtarmış cinayət işinin materialları daxilində olmur, onlar qanunla müəyyən olunmuş üsulla açılır və ya aşkara çıxarılır, məhz ona görə də bunlar yeni hallar adlanır.

Yeni hallar prokuror və ya onun tapşırığı ilə müstəntiq tərəfindən istintaq aparıldıqdan sonra işin təzələnməsi üçün əsas ola bilər. Yeni hallar qanuni qüvvəyə minmiş hökmlə də müəyyən edilə bilər.

Yeni açılmış hallar üzrə işin təzələnməsinə səbəb yeni halların istintaqı nəticəsində müvafiq prokuror tərəfindən verilən protoest hesab olunur. Kassasiya qaydasında işə yenidən baxılmasına səbəb isə müvafiq prokurorun və ya məhkəmə sədrinin iş materialları əsasında tərtib etdikləri protest, yaxud təqdimatı səbəb ola bilər.

Yeni açılmış hallar üzrə işə baxılması nəticəsində iş xitam edilməklə, hökm və qərar ləğv edilir və yaxud yenidən baxılması üçün göndərilir. Buna əsas olmadıqda, prokurorun protesti rədd edilir. Kassasiya qaydasından fərqli olaraq yuxarı məhkəmə yeni açılmış hallara görə məhkəmə hökmünü və qərarını dəyişdirməyə haqlı deyildir.

Yuxarıda göstərilən fərqlər məhkəmə kassasiya ilə yeni açılmış hallar üzrə işlərin təzələnməsini cinayət protsesində xüsusi prosessual mərhələ kimi müəyyən edir.

Yeni açılmış hallar üzrə işlərin təzələnməsi üçün həmin işə apellyasiya və ya kassasiya qaydasında baxılıb-baxılmamasının əhəmiyyəti yoxdur. İş üzrə qanuni qüvvəyə minmiş hökmlər və yuxarı məhkəmələrin sonrakı bütün qərarları bu icraatın predmetini təşkil ediə bilər. Qanunvericilik qanuni qüvvəyə minmiş məhkəmə hökmlərinə və qərarlarına yenidən baxılmasının bu iki formasında bir-birincən fərqlənən xüsusi qaydalar müəyyən etdiyi üçün yeni açılmış hallar üzrə işin təzələnməsi haqqında məsələ kassasiya qaydasında icraatın predmeti ola bilməz.

*Bu icraatın apellyasiya və əlavə kassasiya icratından fərqləri.*

Кassasiya qaydasında işlərə yenidən baxılması mərhələsindən birinci instansiya məhkəmələrin qanuni qüvvəyə minmiş hökmlərinin və qərarlarının, habelə yuxarı məhkəmələrin kassasiya və ya apellyasiya qaydasında çıxartdığı qərarların qanuniliyi və əsaslılığı yoxlanılır. Bu zaman isə yenidən baxılmasına müvafiq vəzifəli şəxslərin protesti səbəb ola bilər Yeni açılmış hallar üzrə işlərin təzələnməsi isə qanuni qüvvəyə minmiş hökmün qanunsuz çıxarılmasına səbəb olan və məhkəməyə işin istintaqı və məhkəmə baxışı zamanı məlum olmayan yeni halların aşkar edilməsi ilə əlaqədar olaraq baş verir.

Əlavə kassasiya qaydasında qanuni qüvvəyə minmin hökmlərə və qərarlara yenidən baxılması ilə yeni açılmış hallar üzrə işlərin təzələnməsi icraatı arasında aşağıdakı ümumi cəhətlər vardır:

1) hər iki icraatın predmetini qanuni qüvvəyə minmiş hökmlər, qərarlar təşkil edir;

2) həmin məhkəmə aktlarının yoxlanılması ümumi qaydalara əsasən eyni məhkəmə orqanları tərəfindən həyata keçirilir.

Qanun hər iki halda məhkum olunanın vəziyyətinin yaxşılaşdırılması istiqamətində ittiham hökmünün və digər məhkəmə aktlarının yenidən baxılmasını heç bir müddətlə məhdud etmir.

**Fərqli cəhətlər.**

Göstərilən ümumi cəhətlərlə yanaşı, hər iki icraatı bir-birindən ayıran bir sıra mühüm fərqlər də vardır. Belə ki, yeni açılmış hallar üzrə işlərin təzələnməsi əsasları, işə əlavə kassasiya qaydasında baxılması əsaslarından ciddi fərqlənir. Adından görüdüyü kimi, yeni açılmış hallar üzrə işlərin təzələnməsi üçün əsaslar hökmün qanunsuz və əsassız çıxarılmasına səbəb olan, məhkəməyə işin istintaqı və məhkəmə baxışı

zamanı məlum olmayan yeni hallar hesab olunduğu halda, əlavə kassasiya və apellyasiya qaydasında işə yenidən baxılması üçün əsaslar iş materiallarının özündən müəyyən edilir.

Yeni açılmış hallar üzrə işin təzələnməsinə səbəb müvafiq prokuror tərəfindən aparılmış araşdırma materialları səbəb olur. Кassasiya qaydasında işə yenidən baxılmasına isə səbəb müvafiq prokurorun və ya hakimin, məhkəmə sədrinin iş materialları əsasında tərtib etdikləri təqdimat ola bilər.

Yeni açılmış hallar üzrə işə baxılması nəticəsində iş xitam edilməklə, hökm və ya qərar ləğv edilir və yaxud yenidən baxılmaq üçün göndərilir. Buna əsas olmadıqda, prokurorun protesti rədd edilir. Кassasiya qaydasından fərqli olaraq, yuxarı məhkəmə yeni açılmış hallar üzrə məhkəmə hökmünü və qərarını dəyişdirməyə haqlı deyildir.

Yuxarıda göstərilən fərqlər məhkəmə kassasiyası ilə yanaşı, yeni açılmış hallar üzrə işlərin təzələnməsini cinayət prosesində xüsusi prosessual mərhələ kimi müəyyən edir. Həmin mərhələnin vəzifəsini qanuni qüvvəyə mindikdən sonra, yeni açılmış hallarla əlaqədar olaraq, qanunsuz və əsassız çıxarılmış hökmlərin və qərarların ləğv edilməsi təşkil edir.

Yeni açılmış hallar üzrə işlərin təzələnməsi üçün həmin işə kassasiya və ya apellyasiya qaydasında baxılıb-baxılmamasının əhəmiyyəti yoxdur. İş üzrə qanuni qüvvəyə minmiş hökmlər və yuxarı məhkəmələrin sonrakı bütün qərar və hökmləri bu icraatın predmetini təşkil edə bilər.

Qanunvericilik qanuni qüvvəyə minmiş məhkəmə hökmlərinə və qərarlarına yenidən baxılmasının bu iki formasında bir-birindən fərqlənən xüsusi qaydalar müəyyən etdiyi üçün yeni açılmış hallar üzrə işin təzələnməsi haqda məsələ kassasiya qaydasında icraatın predmeti ola bilməz.

### *Sual 3. Yeni açılmış hallar üzrə cinayət işi üzr icraatın təzələnməsinin əsasları və müddətləri.*

### *a) Yeni açılmış hallar üzrə məhkəmənin hökm və qərarlarına baxılması haqqında ərizənin ilkin öyrənilməsi.*

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 461-ci maddəsi yeni açılmış hallar üzrə cinayət işi üzrə icraatın təzələnməsi əsaslarını tam və dəqiq nizama salmışdır. Həmin maddəyə əsasən, cinayət işi üzrə icraatın təzələnməsinə əsas ola bilən yeni hallar aşağıdakılar hesab edilir:

1) düzgün olmayan (səhv) hökm və ya qərarın çıxarılmasına səbəb olan zərər çəkmiş şəxsin, şahidin bilə-bilə yalan ifadə verməsi, ekspertin bilə-bilə yalan rəy vermək, tərcüməçinin bilə-bilə yalan tərcümə etməsi, maddi sübutların istintaq və məhkəmə hərəkəti protokollarının və digər sənədlərin saxtalığının məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarı ilə müəyyən edilməsi;

2) cinayət işinin, sadələşdirilmiş icraat materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı təhqiqatçının,müstəntiqin, prokurorun və ya hakimin məhkəmənin qanuni qüvvəyə minmiş hökm və ya qərarı ilə müəyyən edilmiş sui-istifadələrinin düzgün olmayan (səhv) hökm və ya qərarın çıxarılmasına səbəb olması;

3) özü-özlüyündə və ya əvvəllər müəyyən edilmiş digər hallarla birlikdə məhkumun təqsirsizliyinə və ya onun məhkum olunduğu cinayət əməlindən ağırlıq dərəcəsinə görə fərqlənən cinayət törətməsinə, yaxud bəraət almış və ya barəsində cinayət işi, məhkəmənin sadələşdirilmiş icraat materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraata xitam verilməsi  şəxsin təqsirliliyinə dəlalət edən, hökm və ya qərarın çıxarılması

zamanı məhkəməyə və cinayət prosesinin tərəflərinə məlum olmayan digər hallar.

Şahid ifadələrinin, ekspert rəyinin və ya tərcüməsinin açıqca yalan ifadə verməsi, yalan olması, iş üzrə həqiqətin müəyyən edilməsinə ciddi təsir göstərmiş faktların qəsdən təhrif edilməsi kimi qiymətləndirilməlidir. Maddi və digər sübutların saxtalığı dedikdə isə, sənədləri saxtalaşdırmaq, işin hallarına aid olan, lakin əslində mövcud olmayan süni sübutlar yaratmaq, sübutların sübuti əhəmiyyətini aradan qaldırmaq və ya dəyişdirmək məqsədi ilə onların vəziyyətində qəsdən dəyişikliklər əmələ gətirmək kimi başa düşülür. Lakin, sübutların açıqcasına yalan olması və saxtalığı işin təzələnməsi üçün o hallarda əsas ola bilər ki, məhkəmə hökmü və qərarı həmin sübutlara əsaslanmış olsun və ya məhkəmə cəzanın növünü və ölçüsünü müəyyən edərkən, bu sübutları nəzərə almış olsun. Əks tədqirdə belə sübutlar işin təzələnməsi üçün əsas ola bilməz.

Hakimlərin öz vəzifələrindən cinayətkarcasına sui-istifadə etmələri, hakimlər tərəfindən tamah məqsədi ilə və ya sair şəxsi niyyətlərinə görə bilə-bilə ədalətsiz hökm (ittiham, yaxud bəraət) və ya işin xitam edilməsi haqqında qərar çıxarmalarını nəzərdə tutur. İfadəsi işin düzgün həlli üçün mühüm əhəmiyyət kəsb edən şahidin məhkəməyə çağırılmasını rədd etmək, tamah və ya sair niyyətlərə görə bəraət hökmü və ya işin xitam edilməsi haqqında qərardad çıxarmaq cinayətkarcasına sui-istifadə kimi qiymətləndirilməlidir. Prosessual sənədləri saxtalaşdırma, maddi sübutları yararsız şəkilə salma, bilə-bilə işə saxta sənədlər əlavə etmə, əsassız və qanunsuz hökm və ya çıxarılmasına səbəb olduqda da hakimlərin öz vəzifəsindən cinayətkarcasına sui-istifadə etmələri kimi başa düşülməlidir.

İş üzrə istintaq və ya təhqiqat aparan şəxsin cinayətkarcasına sui-istifadə etməsi, bilə-bilə təqsiri olmayan şəxsin tamah məqsədi ilə və ya sair şəxsi niyyətlərə görə təhqiqat aparan şəxs, müstəntiq və ya prokuror tərəfindən cinayət məsuliyyətinə cəlb edilməsi və bunun məhkəmənin

əsassız və qanunsuz hökm çıxarmasına səbəb olması, yaxud təhqiqatın və ya ibtidai istintaqın qəsdən düzgün aparılmaması nəticəsində məhkəmənin məhkum olunana edilmiş cinayətin ağırlığına uyğun olmayan yüngül cəza, yaxud daha ağır cəza təyin etməsi, yaxud təqsiri olan şəxs barəsində bəraət hökmü çıxarması hallarında mövcud olur. Prosessual sənədləri saxtalaşdırma, maddi və digər sübutların keyfiyyətinin dəyişdirmə və ya bunları yararmız hala salma, bilə-bilə saxta sənədləri işə əlavə etmə, ifadəsi işin faktik hallarını düzgün müəyyən edilməsi üçün əhəmiyyəti olan şahidin çağırılmasını rədd etmə və buna oxşar sair halların mövcud olması və bunların məhkəmə tərəfindən əsassız və qanunsuz hökm çıxarılmasına səbəb olması da təhqiqat və ya ibtidai istintaq aparan şəxsin öz vəzifəsindən cinayətkarcasına sui-istifadə etməsi kimi başa düşülməlidir.

CPM-nin 461.02.2-ci maddəsində göstərilən hallar məhkəmənin qanuni qüvvəyə minmiş hökmü ilə müəyyən edilir. Lakin, müddətlərin keçməsinə, ümumi əfv aktı verilməsinə görə və ya ayrı-ayrı şəxslərin bağışlanmasına görə habelə təqsirləndirilən şəxsin ölməsi nəticəsində hökm çıxarmaq mümkün olmadıqda, yeni hallar istintaq aparılması nəticəsində prokurorun tərtib etdiyi protestlə müəyyən edilir. CPM-nin 461.0.3-cü maddəsində göstərilən yeni hallar da göstərilən qaydada yoxlanılır və müəyyən olunur.

Yeni açılmış hallar üzrə cinayət işi üzrə icraatın təzələnməsi müddətləri, təzələnmənin motivləri və məqsədindən asılı olaraq fərqlənirlər. Məhkmənin bəraət hökmünə, işin xitam edilməsi haqqında qərarına yenidən baxmağa, habelə cəzanın yüngüllüyü və ya məhkuma daha ağır cinayət haqqında qanunu tətbiq etmək zərurəti motivlərinə görə məhkəmənin ittiham hökmünə və qərarına yenidən baxılmağa yalnız CPM-in 75-ci maddəsi ilə müəyyən edilən cinayət məsuliyyətinə cəlb etmə müddətləri ərzində və yeni hallar açıldığı gündən bir ildən gec olmayaraq yol verilir.

Məhkumun xeyrinə olan yeni açılmış hallar üzrə ittihahm hökmünə yenidən baxma müddətlərlə məhdud edilmir. Həmin məhkumun ölümü, məhkumun təmizə çıxarılması məqsədi ilə yeni açılmış hallar üzrə onun haqqında işin təzələnməsinə Mane ola bilməz (CM-nin 464.3-cü maddəsi).

Azərbaycan Respublikasının CPM-nin 464-cü maddəsinə əsasən, yeni açılmış hallarla əlaqədar, məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizə vermək hüqüquna kassasiya şikayəti, kassasiya protesti və ya təqdimat vermək hüququ olan şəxslər malikdirlər.

Yeni açılmış hallarla əlaqədar məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizə yazılı şəkildə CPM-in 412-ci maddəsi ilə kassasiya şikayətlərinin və ya kassasiya protestlərinin verilməsi üçün müəyyən edilmiş qaydada verilir. Yeni açılmış hallarla əlaqədar ittiham hökmünə məhkumun xeyrinə baxılması haqqında ərizənin verilmə müddəti məhdudlaşdırılmır. Bəraət  hökmünə bəraət almış şəxsin, habelə ittiham hökmünə məhkumun vəziyyətinin pisləşməsi ilə nəticələnə biləcək yenidən baxılması haqqında ərizənin verilməsinə müvafiq halların müəyyən edildiyi və ya müraciət etmiş şəxsin yeni açılmış hallar barədə məlumat aldığı andan 12 (on iki) ay müddətində yol verilir.

Yenidən baxılma haqqında məsələ məhkumun bəraət alması məqsədilə qoyulduqda, həmin məhkumun vəfat etməsi  məhkəmənin hökm və ya qərarına yeni açılmış hallar üzrə baxılmasına mane olmur. Bu halda yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizənin vəfat etmiş şəxsin həyat  yoldaşı və ya digər yaxın qohumu tərəfindən verilməsinə yol verilir.

***Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizəyə dair tələblər.***

Azərbaycan Respublikasının CPM-nin 465.1-ci maddəsinə əsasən, yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqıqnda ərizədə aşağıdakılar göstərilir:

1) ərizə ilə müraciət edən şəxsin soyacı, adı, atasının adı və prosessual statusu;

2) mübahisə edilən hökm və ya qərarın dəqiq adı (sənəd və vaxt, kim tərəfindən və hansı icraat üzrə çıxarılmışdır);

3) məhkəmənin hökm və ya qərarına yenidən baxılması üçün baxılmanın zəruriliyini təsdiq edən əsaların və sübutların ətraflı izahı;

4) məhkəmənin hökm və ya qərarına yenidən baxılması haqqında məsələnin qoyulduğu səbəblərin əsaslandırılması;

5) ərizənin verilməsi üçün müddətlərə riayət edilməsi halları və mövcud olan sübut vasitələri barədə məlumatlar.

Məhkəmənin hökm və ya qərarına yenidən baxılması haqqında ərizəyə məhkəmənin barəsində mübahisə edilən hökm və ya qərarının surəti, habelə ərizənin əsaslandırıldığı sənədlər (əsilləri və ya surətləri) əlavə edilməlidir.

Məhkəmənin hökm və ya qərarına yenidən baxılması haqqında ərizənin və ona edilmiş əlavələrin surətləri kassasiya şikayəti və kassasiya protesti vermək hüququna malik olan bütün şəxslərə çatacaq sayda olmalıdır.

*a) Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarlarına baxılması haqqında ərizənin ilkin öyrənilməsi.*

Azərbaycan Respublikasının CPM-in 466.1-ci maddəsinə müvafiq olaraq, Ali Məhkəməsinin sədri yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizəyə ilkin baxılmasını Azərbaycan

Respublikası Ali Məhkməsinin müvafiq kollegiyasının hakimlərindən birinə tapşırır.

Yeni açılmış hallarla əlaqədar, məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizəni öyrəndikdən sonra, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi aşağıdakı qərarlardan birini qəbul edir:

1. Ərizə məhkəmənin barəsində mübahisə edilən hökm və ya qərarının əsaslılığına dair şübhə yaratmadıqda, onun baxılmamış saxlanması haqqında.

2. Ərizədən və ya ona əlavə edilmiş sənədlərdən həmin halların müəyyən edildiyi, yaxud onların mümkün mövcudluğu həqiqətən məhkəmənin mübahisə edilən hökm və ya qərarının əsaslılığına dair şübhə yarada biləcəyi məlum olduğu halda yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizə üzrə icraatın açılması haqqında.

3. Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizənin baxılmamış saxlanılması haqqında qərar çıxarıldıqda, həmin qərarın surəti ərizəni vermiş şəxsə göndərilir.

4. Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizənin verilməsi üçün artıq müəyyən edilmiş hallar əsas oduqda, hakim barəsində şikayət verilən qərarın düzgünlüyünə olan şübhələri təsdiq edən məhkəmənin qanuni qüvvəyə minmiş hökmünün mövcudluğunu yoxlayır və belə halı müəyyən etdikdə, cinayət işinin, məhkəməyədək sadələşdirilmiş icraat materiallarının və ya xüsusi ittiham qaydasında şikayətin yeni müəyyən edilmiş hallar üzrə baxılması haqqında rəy tərtib edir. Həmin rəy yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizə və digər materiallara birlikdə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə verilir.

5. Hökm və ya məhkəmənin qərarına yeni açılmış hallar üzrə baxılması üçün ərizənin verilməsinə əsas olmuş halların həqiqiliyini və

tamlığını müəyyən etməkdən ötrü xüsusi araşdırmanın aparılması tələb olunduqda, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi öz qərarı ilə Azərbaycan Respublikasının Baş Prokuroruna belə araşdırmanın aparılmasını təşkil etməyi tapşırır.

6. Qanunvericilik yeni açılmış hallara görə cinayət işi üzrə icraata başlamağı yalnız Prokurorun səlahiyyətinə aid edir. Prokuror yeni hallar haqqında ərizə və ya məlumatı alıb, CPM-in 461-ci maddəsində nəzərdə tutulan hallardan hər hansı birini müəyyən etdikdə, cinayət işi üzrə icraatın başlanması haqqında qərar çıxarır, həmin halların istintaqını şəxsən özü aparır, yaxud da istintaqın aparılmasını müstəntiqə tapşırır. (CPM, m. 466.6). Yeni açılmış halların araşdırılması zamanı istintaq hərəkətləri Azərbaycan Respublikası CPM-in 226-27-cı maddələrinin tələblərinə riayət etməklə aparılır.

Yeni açılmış halların araşdırılması qurtardıqdan sonra istintaq hərəkətlərinin bütün protokolları və digər materiallar yeni açılmış hallar üzrə icraat açmış Azərbaycan Respublikası Ali Məhkəməsinin hakiminə göndərilir.

Prokuror (müstəntiq) tərəfindən aparılmış araşdırmanın materiallarına baxaraq, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi aşağıdakı qərarlardan birini qəbul edir:

– Azərbaycan Respublikasının CPM-in 466.8.1-ci maddəsinə müvafiq olaraq, məhkəmənin barəsində mübahisə edilən hökmünə və ya qərarına yeni açılmış hallar üzrə baxılmasının rədd edilməsi haqqında;

– məhkəmənin hökm və ya qərarına yenidən baxılması haqqında ərizənin və prokuror (müstəntiq) tərəfindən aparılmış araşdırma materiallarının mahiyyəti üzrə baxılması üçün Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna göndərilməsi haqqında. Belə qərar çıxarmaqla yanaşı, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi məhkəmənin barəsində mübahisə edilən hökm və ya qərarının icrasını dayandırmaq

hüququna malikdir. Bu qərarı çıxardıqdan sonra, yeni açılmış hallar üzrə hakimdə olan bütün materiallar Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə verilir.

Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizəyə ilkin baxan Azərbaycan Respublikası Ali Məhkəməsi hakiminin bütün qərarları qətidir və onlardan şikayət verilə bilməz.

Yeni açılmış hallar üzrə məhkmənin hökm və ya qərarına baxılması haqqında ərizənin ilkin baxılmasının nəticələr barədə Azərbaycan Respublikasının Baş Prokuroruna və ya prokurorun nümayəndəsinə, məhkuma (barət almış şəxsə), zərər çəkmiş şəxsə (xüsusi ittihamçıya), habelə məhkəmənin mübahisə edilən hökm və ya qərarının mənafelərinə toxunduğu digər şəxslərə məlumat verilir. Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına baxılması haqqında ərizənin və prokuror (müstəntiq) tərəfindən aparılmış araşdırma materiallarının mahiyyəti üzrə baxılması üçün Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumuna göndərilməsi haqqında qərar qəbul edildikdə, CPM-in 466.10-cu maddəsində göstərilən şəxslərə, həmçinin məsələnin baxılması vaxtı və yeri haqqında məlumat verilir.

Yeni açılmış hallar üzrə məhkəmənin hökm və ya qərarına Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun iclasında baxılması CPM-in 427-ci maddəsində nəzərdə tutulmuş qaydalar üzrə həyata keçirilir.

# N Ə T İ C Ə

Beləliklə, cinayət prosesinin yeni mərhələsi olan yeni açılmış hallar üzrə cinayət işlərinin təzələnməsi mərhələsinin vəzifəsini qanuni qüvvəyə minmiş hökmlərinin, qərardadlarının və qərarlarının ləğv edilməsi təşkil edir. Qanun cinayət prosesinin hər bir mərhələsində olduğu kimi, bu mərhələdə də məhkum olunanın vəziyyətinin yaxşılaşdırılması istiqamətində işlərin görülməsini nəzərdə tutur. Bu işlərdən biri də məhkumun xeyrinə olan hökmə, qanuni qüvvəyə minmiş cinayət işi üzrə yeni açılmış hallar üzrə ittiham hökmünə yenidən baxmanın heç bir müddətlə məhdud edilməməsidir.

CPM-si yeni açılmış hallar üzrə cinayət işi üzrə icraata başlamaq səlahiyyətini də prokurora həvalə etmişdir. Buradan belə nəticəyə gəlirik ki, “yeni açılmış hallar” aşkar edildikdə, prokuror bu işlərə xüsusi nəzarət edir və icraata bilavasitə rəhbərlik edir.

Araşdırdığımız mövzu üzrə son fikir olaraq onu deyə bilərik ki, cinayət-mühakimə üsulu qanunsuluğun və hüquq qaydalarının möhkəmlən-məsinə, cinayətlərin qarşısının alınmasına və kökünün kəsilməsinə, cəmiyyətin mənafeyinin, vətəndaşların hüquq və azadlıqlarının qorunmasına, vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasına və onun qanunlarına dönmədən əməl etmək, birgəyaşayış qaydalarına hörmət etmək ruhunda tərbiyələnməsinə xidmət edir.